


Azərbaycan Beynəlxalq Bankı nın törəmə müəssisələrindən olan “ Azərbaycan Beynəlxalq Bankı – Gürcüstan”ın fəaliyyətə başlamasının 10-cu ildönümü tamamlanıb. Bu bank 2007-ci ilin fevralında Azərbaycan dövlətinin dəstəyi ilə fəaliyyətə başlayıb. Hazırda “ABB–Gürcüstan”ın nizamnamə kapitalı 22,688,000 lari təşkil edir.

Dalga tv xəbər verir ki, Gürcüstan Banklar Assosiasiyasının üzvü, Gürcüstanın “Birləşmiş Klirinq Mərkəzi”nin təsisçilərindən olan Bank 2011-ci ildə BACEE təşkilatına (Mərkəzi və Şərqi Avropa regionu üzrə Banklar Assosiasiyası) qəbul edilib.

“ABB-Gürcüstan”ın əsas missiyası Gürcüstanın maliyyə bazarında Azərbaycan kapitalının mövqeyini möhkəmləndirmək və biznesin bu kapitala çıxış imkanlarını təmin etmək, Azərbaycanla Gürcüstan arasında iqtisadi-ticari əlaqələrin inkişafına töhfə verməkdir. Bank Bakı-Tbilisi-Qars dəmir yolu xətti kimi irimiqyaslı beynəlxalq layihələrə maliyyə vasitəçisi kimi yaxından dəstək göstərir. “ABB-Gürcüstan” ölkənin bank sektorunda mövqelərini getdikcə gücləndirir, iri korporativ müştərilər üçün əsas maliyyə mənbələrindən sayılır.